Ədəbiyyat QƏZETİ

13 mart / 2021

# Nazim Məmmədbəyov - 85



Hörmətli Nazim müəllim!

Sizi - istedadlı yazıçını yubileyiniz münasibətilə təbrik edirik.

Siz yarım əsrdən artıqdır ki, bədii yaradıcılıqla məşğulsunuz. Ədəbiyyata şeirlə gəlmisiniz. İlk qələm təcrübələriniz mətbuatda dərc edilmişdir. Şeir və təmsillərdən ibarət səkkiz kitabınız işıq üzü görmüşdür. Ondan artıq poemanız oxucuların ixtiyarına verilmişdir. "Hekayələr", "Nağıllar", "Nazim babanın nağılları", "Musiqili nağıllar" və s. nəsr kitablarınız maraqla qarşılanmışdır. Yaradıcılığınızda satira və yumora geniş yer verirsiniz. Komediya janrına müraciət etməniz, bəlkə də bu səbəbdəndir. "Şahqulunun ad günü", "Qohumbazlar", "Qonşular" və s. komediyalarınız səhnələşdirilmişdir.

Siz otuz il Azərbaycan Respublikası Təhsil Nazirliyinin Estetik Tərbiyə üzrə Tədris-metodik Mərkəzinin direktoru kimi səmərəli fəaliyyət göstərmisiniz. Buradakı işinizə, həmçinin ədəbi uğurlarınıza görə 66 diplom, fəxri fərman, "SSRİ-nin maarif əlaçısı", "Azərbaycanın maarif xadimi" fəxri adlarına layiq görülmüsünüz. Hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyətinizi davam etdirirsiniz.

Hörmətli Nazim müəllim

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

***Azərbaycan Yazıçılar Birliyi***